**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 40

Bakı şəhəri «14» iyun 2016 il

**"Ağsu rayon Mərkəzi Xəstəxanasının Strukturunun təsdiq edilməsi barədə"**

Ağsu rayonunun əhalisinə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması, tibb müəssisələrinin fəaliyyətinin səmərəliliyinin artırılması, çarpayıların real tələbata uyğunlaşdırılması, ayrılan büdcə vəsaitindən daha səmərəli istifadə olunması məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Ağsu rayon Mərkəzi Xəstəxanasının çarpayı sayı 165 müəyyən edilməklə strukturu təsdiq edilsin (əlavə olunur).

2. Ağsu rayon Mərkəzi Xəstəxanasının baş həkimi Ş.Məlikovaya tapşırılsın:

2.1. yeni struktura uyğun olaraq xəstəxananın ştat cədvəlinin layihəsi hazırlanaraq müəyyən edilmiş qaydada Səhiyyə Nazirliyinə təqdim edilsin,

2.2. bu əmrdən irəli gələn maliyyə, kadr və digər məsələlər həll edilsin.

3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 27 iyul 2009-cu il tarixli 81 nömrəli əmri ilə təsdiq edilmiş əlavənin 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

4. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
"14" 06 2016-cı il tarixli
40 nömrəli əmri ilə təsdiq edilmişdir

**Ağsu rayon Mərkəzi Xəstəxanasının**

**STRUKTURU**

| S/N | Şöbələrin adı | Çarpayıların sayı |
|---|---|---|
| 1. | İdarəetmə və təsərrüfat bölməsi | |
| 2. | Ümumi xəstəxana heyəti | |
| 3. | Poliklinika şöbəsi | |
| 3.1. | Uşaq bölməsi | |
| 4. | Qəbul şöbəsi | |
| 5. | Cərrahiyyə şöbəsi | 50 |
| 6. | Terapiya şöbəsi | 35 |
| 7. | Pediatriya şöbəsi | 20 |
| 8. | Doğum şöbəsi | 20 |
| 9. | Anesteziologiya-reanimasiya və intensiv terapiya şöbəsi | 10 |
| 10. | Yoluxucu xəstəliklər şöbəsi | 10 |
| 11. | Ağ ciyər xəstəlikləri şöbəsi | 15 |
| 12. | Hemodializ şöbəsi | 5 |
| 13. | Fizioterapiya və tibbi bərpa şöbəsi | |
| 14. | Şüa diaqnostikası şöbəsi | |
| 15. | Qanköçürmə kabineti | |
| 16 | Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsi | |
| 17. | Laboratoriya şöbəsi | |
| 18. | Aptek şöbəsi | |
| | Cəmi: | 165 |